O HƏR ZAMAN YANACAQ

I

Gecədir...
Yamacları tutub çən, duman.
Dərədə çay kənarında,
Mürgüləyir köhnə bir dəyirman...

II

Bir kəndli
yolla ötüb keçdiyi zaman,
Sanki işıqlandı köhnə dəyirman.
Zülmət gecə gündüzə döndü,
uzaq və ucqar
dağ yolları
aydın göründü...
Nur çiləndi yolçunun gözünə,
Saxlayıb ayağını o
dedi öz-özünə:
– Görəsən bu yol kənarında
əli fənərli kimdir?
– Yanan fənər deyil, dedim –
mənim işıqlı qəlbimdir!
Yanır,
nə duman keçirə bilir onu,
nə də çən,
Yanır,
Gonclik illərindən bu günəcən –
Yanır xalqım üçün ancaq.
Mən ölsəm də
başım üstündə –
məzar daşım üstündə
O hər zaman yanacaq!!!

Bakı, 1954

Balaca dostlara

BABAN BELƏ DEMİŞDİ

(*Uşağın ad günündə*)

Əlvan çiçəklərlə bəzənir eyvan,
Bayram paltarını geyinir anan...
Qohumlar, qonşular iki-bir, üç-bir,
Əllori çiçəkli tökülüb gəlir.
Gül kimi fərəhlə açılır üzün,
Sənin ad günündür, ay oğul, bu gün.
Ömrünün bağında gül açır bahar,
Bunun da öz şövqü, öz cəlalı var...
Hər gələn tez nəzər yetirir sənə...
Hərə bir oyuncaq gətirir sənə.
Düzülür qarşında o hədiyyələr,
Balaca ayılar, atlar, dəvələr...
Gülür umul-umul şeytan gözlərin,
Üzürsən içində al çiçəklərin...

Nə kaman dincəlir, nə tar dayanır,
Fərəhli gözlərdə sevinclər yanır.
Aləmə sığmayır çalan-çağıran,
Süfrədə yeməklər dəyişir hər an...
"Al şərab" başlara etdikcə əsər,
Mehriban gülüşlər, şən qəhqəhələr,
Gəzib könülləri quş kimi yenə,
Yüksəlir göylərin dərinliyinə...
Qədəhlər boşalır, dolur yenidən,
Lakin ağır-ağır düşünürəm mən...

Məclis ahəngini bir az dəyişir,
Qonaqlar söz alıb danışır bir-bir:

Dünyada hər kəsdən şirindir övlad,
Bizim xalqımızın fəxridir bu ad
Əziz "Babək" adı...
– Mübarək olsun!
Sənin sağlığına!
xoşbəxt ol, quzum!
Qədəhlər boşalır, dolur yenidən
Lakin ağır-ağır düşündükcə mən,
Görürəm qarşımda bir heykəl durur –
Babamdır, minillik alnında qürur.
Bayaqdan dayanıb seyr edir bizi...
Mənalı-mənalı süzüb məclisi,
Üzünü körpəyə tutur ixtiyar:
– Mənim də bir kiçik nəsihətim var:
Quzum, bu gün sənin ad günündür, ad...
Nə olar? Xoşbəxt ol, boya-başa çat!..
Lakin, fayda yoxdur biz qoyan addan,
Özün hünər göstər, özün ad qazan!..

SƏHƏRİN KEŞİKÇİLƏRİ

Bəxtiyar balalar, oynayın, gülün, –
Xalqın sevincidir gülüşləriniz.
Bir də qaşlarınız çatılmayacaq,
Durmuşuq ağ günün keşiyində biz.

Körpə fidanları becərməsəydi,
Bağban bağ üzünə həsrət qalardı.
Uşaqlar, cavanlar yetişməsəydi,
Yəqin ki, insanlıq tez qocalardı...

Yeni dünya qurdu ata-babanız –
Bu sözün mənası dərindir, dərin!
Çox var-dövlət qoydu...Sabah yəqin ki,
Sahibi sizsiniz bu nemətlərin!

Oxumaq, öyrənmək, yaratmaq olsun,
Hər an vəzifəniz, hər an işiniz.
Sizə biz keşikçi olduqca bu gün,
Sabah siz özünüz keşikçisiniz!

Gedin, mətin olsun addımlarınız,
Hər saat irəli, hər gün irəli!
Günəşi lap erkən salamlayacaq,
Qızaran səhərin keşikçiləri!..

QIZILGÜL OLUN

Qaratikan kolu uca olmayır,
Onun çinar kimi görkəmi yoxdur.
Lakin, hər "nizəsi", hər "qalxanilə"
O öz keşiyində çox yaman durur...

Batsa da tikanı ələ, ayağa.
İnsafla ona da haqq verək bir az! –
Kimsə toxunmasa, kimsə dəyməsə
Qaratikan belə, tikanlı olmaz!..

"Qaratikan olun" – demirik, əsla,
Ayrıdır büsbütün bizim fikrimiz –
Bacarın ətirli qızılgül olun,
Tikansız olmayın lakin bir an siz!..

NƏ İSTƏSƏ UŞAQLAR BİZİM BAĞÇAMIZDA VAR

Bağçadır bir yanımız,
İçi güllü, çiçəkli.
Bir yanda bostanımız,
Yemişli, xəlvirəkli.
Bağçamız aşıb daşır,

Meyvələr ağırlaşır,
Şirə yığır özünə.
Əyilir gündən-günə.
Ağacların budağı.
Almaların yanağı
Qızarıb nara dönmüş,
Şirin nübara dönmüş.
Budaqlar əyib yıxır,
Heyvalar tükdən çıxır.
Çoxdan dərilmiş xiyar,
Saralır göy qovunlar.
Hulu dolur, sulanır,
Xuni qarpız zağlanır.
Bir tağın altına bax:
Şamama zolaq-zolaq,
Xal açır öz tağında..
İlin payız çağında.
Nə istəsə uşaqlar,
Bizim bağçamızda var.

QARANQUŞLAR GƏLƏNDƏ

Yenə quşlar görünür,
Qaranquşlar görünür.
Xoş nəğmələr gətirir,
Təzə xəbər gətirir.

Meh əsir sərin-sərin,
Yaşıl məxmər çöllərin.
Səfası var, səfası...
Gözəldir yaz havası.

Hər il çöllər güləndə,
Qaranquşlar gələndə.
Bağçalara bar gəlir,
Ellərə bahar gəlir.

YAZ YAĞIŞI

Dağları duman aldı,
Göyün üzü qaraldı.
Əsdi sərin küləklər,
Parıldadı şimşəklər.
Titrədi göy budaqlar,
Xışıldadı yarpaqlar.
Göy ucadan gurladı,
Yaz yağışı başladı.
Sulandı tozlu yollar,
Cana gəldi taxıllar.
Nur saçıldı çöllərə,
Yaşıllaşdı dağ, dərə...

SIĞIRÇIN

Qara, zərli tükü var,
Gün düşəndə parıldar.
Budağa qonub odur,
Şaqqıldayıb oxuyur.
Sığırçındır həmin quş,
Ağacda yuva qurmuş.

O yuvadan qaçanda,
Uzaqlara uçanda,
Göyə baxıb hər zaman
Civildəşir acından.
Boynu yoluq balalar,
Gözləyirlər biqərar.

Ana bunu bilirmi,
Gəlir ildırım kimi.
Dövrə vurub havada,
Qərar tutur yuvada...
Nə isə dimdikləyir,
Balaları yemləyir.

Elə ki, bu körpələr
Yeyirlər, yemlənirlər
Buna şad olur ana.
Yenə gəlir cövlana...
Budağa qonub, odur
Şirin-şirin oxuyur.

MARALLAR

Göy talada uşaqlar,
Çiçək toplayırdılar.
Elə bu anda birdən,
Şaqqıltıyla meşədən,
Sıçraşaraq dalbadal,
Çıxdı bir sürü maral.

Ana öndə qaçırdı,
Elə bil yol açırdı.
Qalınlığı yararaq;

Lap arxada, odur bax
İri döşlü, buxaqlı,
Başı pərli, budaqlı,
Baxıb dala, qabağa
Məğrur gəlir boz buğa

Marallar tez qəflətən,
Uşaqları görərkən,
Hürküşərək qaçdılar,
Təpələri aşdılar.

BAHAR NƏĞMƏSİ

Doğdu Günəş, əridi qar,
Bahar gəldi, bahar gəldi.
Xəbər verdi qaranquşlar:
Bahar gəldi, bahar gəldi.

Səhər çağı hava xoşdu,
Könüllər qaynadı, coşdu.
Uşaqların yaxın dostu,
Bahar gəldi, bahar gəldi.

Çaylar daşdı, köpükləndi,
Dağların döşündən endi...
Al geyib ellər bəzəndi,
Bahar gəldi, bahar gəldi.

Kötükdən uçdu arılar,
Qarışqalar qatar-qatar.
Kol dibindən yol saldılar;
Bahar gəldi, bahar gəldi.

Budaqlarda gülə-gülə,
Bülbül nəğmə deyir gülə.
Al şəfəqli bir günəşlə,
Bahar gəldi, bahar gəldi.

Aşıqlar qurşandı saza,
Şairlər söz qoşdu yaza.
Bizim güllü bağçamıza,
Bahar gəldi, bahar gəldi.

Göy çəməndə səhər-səhər
Mahnı deyir şən körpələr.
Yaxasında bənövşələr
Bahar gəldi, bahar gəldi.

MAY BAYRAMI

Yetişdi may bayramı,
Geyib bəzəndi hamı.
Hər yan çalan, çağıran,
Mahnı deyir qız, oğlan.

Axın-axın insanlar
Nümayişə çıxdılar.
Uşaqlar da qoşun tək,
Küçələrdən keçərək,

Axına qarışdılar,
Çaylar kimi daşdılar.

Balalar da səsini,
Öz könül nəğməsini,
Bu şənliyə qatdılar,
Bir ahəng yaratdılar...

Sonra əziz körpələr,
Dillərində nəğmələr,
Dolandılar meydanı.
Sərin düşən zamanı,
Göy bağçaya gəldilər,
Oturub dincəldilər.

TAXIL BİÇİNİ

Otlar yanır, yaralır,
Yarpaqları saralır.
Çiçəklərin, güllərin.
Saçaqlı sünbüllərin
Yerə dəyir başları,
Arpa, buğda sapsarı...

Tarlalara baxın bir,
Vurhay taxıl biçilir.
Çöllərdə səhər erkən
Maşınların səsindən
Dağlar, daşlar səslənir,
Boz yamaclar bəzənir.

Parıldaşır yabalar,
Göyə dəyir tayalar.
Qadın, kişi, qız, oğlan
İşləyirlər canhacan!

Hər kim yayda işləməz
Qış günləri ac qalar.
İşləməyən dişləməz,
Çörəyə möhtac qalar.

MÜNDƏRİCAT

Ön söz 4

MƏHƏBBƏT

Əsirgəməzdim 11
Məhəbbət 12
El gücü - sel gücü 13
Kiçik bir arzu 14
Bu yerlər 15
Mən qazağa gəlmişəm 16
O mənim hər zaman ürəyimdədir 16
Binam öz babamın yurduna düşdü 18
Arxalandığım 22
El sovqatı, el payı 23
Şənlik mahnısı 24
Gətir, oğlum, gətir! 25
Bakının işıqları 33
Şairin arzuları 34
Yeni qatarlar 36
Bakı yaylaları 40
Sənət sarayı 42
Mən səni seçdim ki... 44
Təqvimin son varağı 45
Tut ağacı 47
Heykəl 50

BU DÜNYA DURDUQCA DURACAQSINIZ

Vətən eşqinə 52
Bu dünya durduqca duracaqsınız 53
Şairin hədiyyəsi 53
Bahar çiçəkləri 55
Ala çinar 56
Sünbül və at nalı 57
Ağ xələtli qız 58
Bu yer onun yeridir 59
Bu aləmdə nə çatmayır? 60
Gözünüz aydın 61
Deyirlər 63

ƏN GENİŞ ALƏM

Ən geniş aləm 64
Öz bulağımdır 65
Silah 65
Tanınarsan 65
İşıq saçır 66
Özünə bəsdir 66
İzləri silinməsin 66
Bu kitabın fəsilləri 66
Bir xeyri varmı? 67
Özümə yetikdir 68
Dilin var əgər 68
Oxuyun məni 70
Varını verən utanmaz 70
Birco zərrəm də bəsdir... 71
Hələ ürəyimdədir 71

HƏYAT FƏLSƏFƏSİ

Filosof və şair 72
Xeyirsiz olur 73
Yenidən doğulacaqdır 73
Söykənsə 73
Sahildə 74
Torpaq da, daş da 75
Bir filosofa 75
Əbəsdir 76
Görünmür 76
Ehtiyat 77
Təzyiqlər 77
Kimin başı, kimin daşı 78
Möhkəm vurun 78
Dünyadır 78
Səbəbsiz yaranan 79
Hansınız qızdır 80
Dolur ev-eşiyi 80
Yalançı etiqadlar 81
Müdrik qoca deyirdi 81
Əcəl birdən gəlir 81
Möhtac olarsan 82
Unutduq 82
Zarafat 82
Səğir "nun" 83

Tale nədir? 83
Ayağından dəyir... 84
Yedəkləməyin 84
Qalır 84
Sınaq 85
Redaktor və oxucu 85
Sabiri andım 86
"Ptiçka"quş deməkdir 87
Quşcuğaz 88
Xoş gəlir 89
Var 89
Dərd çəkir 90
Dincəlmək istər 90
Millət 91
Cüllüt 91
Onun ürəyi 92
Dayağı yoxdur 92
Ləbbeh 93
Babamın ölçüsü 93
Yoxdur 93
Həyat və ölüm 93
Ayaq və baş 94
Dil və diş 94
Moda 94
Qiyafə-görkəm 95
Canavar 95
Sel 95
İnsan ömrü 96
Kotan nə bilir ki... 96
Daş 97
Olsa yaxşıdır 97
Gözləri acdır... 97
Adamlar və dünyalar 98
Yaratsın 99
Çox olur 99

"KÖHNƏ KƏNDİN MƏNZƏRƏLƏRİ" SİLSİLƏSİNDƏN

Bilmirəm 100
Bir banka bal 102
Görəndə 103
Adam var ki... 103

Dərdsiz 103
Yaxşıdır 104
Deyişsən 104
Olacaq müdam 104
Azdır 104
Dərs alan 105
Çomaq Əsəd 105
Xatırlasınlar 105
Daş da duyur 106
Şair olaram 106
El dərdi 107
Yüngül 107
O bəxtiyardır 108
Gülməsin deyə 108
Dərdim olub 109
İnam 109

ŞAİR VƏ TƏBİƏT

Təbiətin qanunu 110
Qüdrət 110
Təbiət 111
Əbədiyyət bəxş edib 111
Əmək və təbiət 112
Qanuniyyət 112
Qarayazı 112
Anlayar məni 114
Bilir 114
Təbiətin sohvi 115
Təbiət insaflıdır 116
İsti gün olaydı... 116
Aranım, dağım 117
Yaratmamışdır 117
Qara torpaq 117
Hədiyyə 118
Məhəbbət fəsli 119
Dağ və təpə 119
Torpaq və su 119
Qara torpaq 120
Krım bənövşəsi 120
Vəfasız oldu 121
Bənövşə 122

CONUBLU QARDAŞLARIMA

A dostlar 124
Birinci dərs 125
Dünyanın 126
Dəvə karvanı 126
Təbriz gözəli 128
Panamalı dilənçi 134
Aşığın ayrılıq mahnısı 135
Nə haydadır? 136
Yetirməmişəm 137

AŞIQ DOSTUMA

Aşıq dostuma 138
Başına döndüyüm 139
Söylə 139
De gəlsin 140
O kimdir başımda çalır, çağırır 143
Əmrahın sazı 144
Dağlar 145
Dağlar mahnısı 146
Dedim 146
Dostunuz gəlir 147
Olarmı? 148
Dərdin alım 149
Gözünün yaşına qurban 149
Qara geyinmə 150
Yadında varmı? 151
Bakının küləkli günləri kimi 152
Sən olmadınmı? 152
Yenə 153
Olar 154
Enmədi 154
İncimə 155
Məni 156
Dağların 156
Qızlar mahnısı 157
Mən belə dedim 157
Nə bilsin 158
Gəlmədi 158
Var mənim 160
Qalıbdır 160